## Yanğından icbari sığorta haqqında

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsindən irəli gələrək, Azərbaycan Respublikası ərazisində sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin əmlakının və üçüncü şəxslər qarşısında mülki məsuliyyətinin yanğından sığortası sahəsində münasibətləri tənzimləyir, bu sığortanın iştirakçıları tərəfindən yerinə yetirilməli olan minimum məcburi tələbləri müəyyən edir.

Fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan şəxsi əmlakına və məsuliyyətinə bu Qanunun müddəaları şamil edilmir.

**Maddə 1 . Sığortanın məqsədi**

Yanğından icbari sığortanın məqsədi yanğın nəticəsində sığortalıların və əhalinin əmlakına və sağlamlığına vurulan zərərin əvəzini vaxtında ödəməklə onların əmlak mənafelərinin qorunması və sosial müdafiəsinə əlavə təminat verilməsindən ibarətdir.

**Maddə 2 . Yanğından icbari sığorta haqqında qanunvericilik**

Yanğından icbari Sığorta fəaliyyəti haqqında qanunvericilik bu Qanundan, Azərbaycan Respublikasının Mülki Məcəlləsindən, "Sığorta haqqında" və "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının qanunlarından, habelə həmin qanunlara müvafiq olaraq qəbul edilmiş digər normativ hüquqi aktlardan ibarətdir.

**Maddə 3 . Sığortanın obyektləri**

3.1. Sığortanın obyekti aşağıdakılarla bağlı əmlak mənafeləridir:

3.1.1.sığorta müqaviləsilə nəzərdə tutulmuş ərazidə sığortalının mülkiyyətində və ya istifadəsində olan binalar, o cümlədən insanların kütləvi halda toplanması üçün binalar, anbarlar, qurğular, ötürücü qurğular, maşın və avadanlıq, mebel, hazır məhsul, xammal və materiallar;

3.1.2.yanğın nəticəsində üçüncü şəxslərin əmlakına və sağlamlığına zərərin vurulmasına görə sığortalının mülki məsuliyyəti.

3.2. Sığorta hadisəsi zamanı üçüncü şəxslərin əmlakına və sağlamlığına vurulan və sığortaçı tərəfindən əvəzi ödənilən zərərə aşağıdakılar aiddir:

3.2.1.ölüm və ya bədən xəsarəti;

3.2.2.əmlakın zədələnməsi və ya məhv olması;

3.2.3.zərərin ödənilməsi barədə işlər üzrə məhkəmə xərcləri.

3.3. Bu Qanunun məqsədləri üçün aşağıdakı əşyalar sığorta obyekti sayılmır:

3.3.1.sənətkarlıq və antikvar baxımından qiymətli olan tablolar, rəsm əsərləri, kitablar, qravürlər, yazılar, heykəllər, bəzək əşyaları, kolleksiyalar;

3.3.2.modellər, qəliblər, plan və eskizlər, ixtira patentləri, sənədlər;

3.3.3.nəğd pul, səhm, istiqraz və digər qiymətli kağızlar, qiymətli metallar, qiymətli daşlar və onlardan hazırlanmış məmulatlar.

3.4. Qəza vəziyyətində olan binaların və qurğuların, həmçinin onlarda yerləşən əmlakın sığortalanmasına yol verilmir.

**Maddə 4 . Sığortalılar**

sığortalılar sahibkarlıq fəaliyyəti göstərən, mülkiyyətində və ya istifadəsində bu Qanunun 3.1.1-ci maddəsində göstərilmiş obyektləri olan hüquqi və fiziki şəxslərdir.

**Maddə 5 . Sığortaçılar**

Sığortaçı sığorta fəaliyyəti ilə məşğul olmaq üçün qanunvericilikdə nəzərdə tutulmuş qaydada lisenziyaya malik olan, yanğından icbari sığorta növü üzrə sığorta nəzarəti orqanından müvafiq icazə almış hüquqi şəxsdir.

**Maddə 6 . Üçüncü şəxslər**

Sığorta müqaviləsinin tərəfi olmayan və bu Qanuna görə yanğın hadisəsi nəticəsində əmlakına və sağlamlığına zərər vurulan hüquqi və fiziki şəxslər, habelə onların hüquqi varisləri üçüncü şəxs sayılırlar.

Sığorta ödənişinin verilməsi məqsədilə zərər vuran hüquqi və ya fiziki şəxslər və onların işçiləri üçüncü şəxs sayılmırlar.

**Maddə 7 . Sığorta hadisəsi**

7.1.Yanğın, eləcə də ildırım düşməsi, yaxud partlayış və ya bunlarla əlaqədar əmələ gələn tüstü, buxar, yaxud istilik nəticəsində sığortalının əmlakına, habelə üçüncü şəxslərin əmlakına və sağlamlığına zərərin vurulması sığorta hadisəsi sayılır.

7.2.Aşağıdakılar nəticəsində yanğının vurduğu zərər sığorta hadisəsi sayılmır:

7.2.1.müharibə, hər cür hərbi əməliyyatlar, mülki iğtişaş, terror, qiyam və bunların qarşısını almaq üçün görülən inzibati və hərbi tədbirlər;

7.2.2.nüvə partlayışı.

7.3. Aşağıdakıların nəticəsində vurulan zərər sığortaçı tərəfindən ödənilmir:

7.3.1.təmir, emal və ya digər istehsalat məqsədləri üçün istifadə olunan istehsal alovunun, yaxud istiliyin təsiri nəticəsində, habelə əmlakın təbii xüsusiyyətlərindən asılı olaraq baş vermiş qıcqırma, çürümə və digər kimyəvi reaksiyalar nəticəsində əmlakın xarab və ya məhv olması;

7.3.2.elektron aparatlarının və avadanlığının yanması nəticəsində, eyni zamanda yanğın baş verməmişdirsə, həmin aparat və avadanlığın sıradan çıxması;

7.3.3.yanma kamerasında yaranan partlayış zamanı daxili yanma mühərriklərinin sıradan çıxması;

7.3.4.sığorta hadisəsi zamanı və ya sığorta hadisəsindən sonra əmlakın oğurlanması.

**Maddə 8. Sığortalının hüquq və vəzifələri**

8.1. sığortalının aşağıdakı hüquqları vardır:

8.1.1.sığortaçını sərbəst seçmək;

8.1.2.sığorta qaydaları ilə tanış olmaq;

8.1.3.sığorta hadisəsinin baş verməsi riskinin azaldılması istiqamətində tədbirlər görüldükdə sığorta haqqının yenidən hesablanmasını sığortaçıdan tələb etmək;

8.1.4.sığorta hadisəsi baş verdikdə sığorta ödənişini tələb etmək;

8.1.5.qanunla və müqavilə ilə nəzərdə tutulmuş digər hüquqlar.

8.2. sığortalının aşağıdakı vəzifələri vardır:

8.2.1. bu Qanuna uyğun olaraq sığortaçı ilə müqavilə bağlamaq və sığorta haqqını ödəmək;

8.2.2.sığorta hadisəsi zamanı əmlakın xilas edilməsi, zərərin qarşısının alınması və onun azaldılması istiqamətində tədbirlər görmək, yanğınsöndürmə xidmətini çağırmaq;

8.2.3.zərər çəkmiş və ya zərər çəkmə ehtimalı olan şəxslərin həyatmı xilas etmək üçün bütün mümkün tədbirləri həyata keçirmək;

8.2.4.sığorta hadisəsinin baş verdiyi gündən ən geci 3 iş günü ərzində sığortaçıya yazılı məlumat vermək;

8.2.5.zəruri hallar istisna olmaqla, zərər vurulmuş yerdə və əmlakda sığortaçı və ya digər səlahiyyətli şəxslər onlara baxış keçirənədək heç bir dəyişiklik etməmək;

8.2.6.sığorta aktının tərtib olunması, zədələnmiş əmlaka baxış keçirilməsi, baş vermiş sığorta hadisəsinin səbəblərinin, nəticələrinin, zərərin xarakter və miqdarının təhqiq edilməsi üçün sığortaçıya şərait yaratmaq və sənədləri sığortaçıya təqdim etmək;

8.2.7.baş vermiş sığorta hadisəsi ilə əlaqədar sığortalı təqdim edilmiş bütün iddialar barədə sığortaçıya xəbər vermək;

8.2.8.vurulmuş zərərə görə digər təqsirkar şəxslərdən alınmış ödənişlər barədə sığortaçını xəbərdar etmək;

8.2.9.sığortaçı tərəfindən sığorta ödənişi verildikdən sonra təqsirkar üçüncü şəxslərdən subroqasiya qaydasında sığortaçının tələb etmək hüququnu təmin etmək və bunun üçün özündə olan bütün sənədləri sığortaçıya vermək;

8.2.10.sığorta müqaviləsi bağlanarkən riskin qiymətləndirilməsi üçün əhəmiyyətli olan hallar və riskin sonradan dəyişməsi barədə sığortaçıya məlumat vermək;

8.2.11.sığorta edilən obyektə dair qüvvədə olan digər sığorta müqavilələri barədə sığortaçıya məlumat vermək;

8.2.12.qanunla və müqavilə ilə nəzərdə tutulmuş digər vəzifələr.

8.3. sığortalı öz əmlakmı və ya mülki məsuliyyətini başqa bir sığortaçıda da sığortalamışdırsa, sığorta hadisəsi barədə həmin sığortaçıya da məlumat verməlidir.

8.4. Sığortalanmış əmlak özgəninkiləşdirildikdə sığortalı sığortaçıya dərhal məlumat verməlidir. Bu halda sığorta müqaviləsində müvafiq dəyişikliklər edilir.

**Maddə 9 . Sığortaçının hüquq** və **vəzifələri**

9.1. Sığortaçının aşağıdakı hüquqları vardır:

9.1.1.sığorta edilən əmlakın baxışım keçirmək, sığortalı ilə birlikdə sığortalanan əmlakı qiymətləndirmək və ya bu işi müstəqil sığorta qiymətləndiricisinə həvalə etmək;

9.1.2.sığorta müqaviləsində nəzərdə tutulduğu hallarda və ya sığortalının tapşırığı ilə onun adından məhkəmədə iştirak etmək;

9.1.3.Sığorta hadisəsi nəticəsində dəyən zərər məbləğini Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada müəyyən etmək.

9.1.4.sığorta müqaviləsi ilə əhatə olunmuş ərazilərə (binalara) daxil olmaq, hadisəni təsdiq edən sənədlər alındıqdan sonra lazımi tədqiqatlar aparmaq və ya bu məqsədlə ekspertlər dəvət etmək;

9.1.5.hadisə ilə əlaqədar təqsirkar şəxs müəyyən olunarsa, sığorta ödənişi verildikdən sonra ona qarşı subroqasiya qaydasında iddia qaldırmaq;

9.1.6.qanunla və müqavilə ilə nəzərdə tutulmuş digər hüquqlar.

9.2. Sığortaçının aşağıdakı vəzifələri vardır:

9.2.1. sığortalıdan sığorta haqqını almaq və Azərbaycan Respublikasının Mülki Məcəlləsinə müvafiq olaraq sığorta şəhadətnaməsini vermək;

9.2.2.sığorta hadisəsi baş verdikdə sığortalıdan ərizə daxil olduqdan sonra 3 gün müddətində hadisənin baş vermə səbəblərini müəyyənləşdirmək, dövlət yanğın nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanlarından sığortalanmış əmlak barədə lazımi məlumat almaq;

9.2.3.tələb olunan bütün sənədlər təqdim edildikdən sonra 10 gün müddətində sığorta ödənişini vermək və ya yazılı şəkildə əsaslandırmaqla ödənişin verilməsindən imtina etmək;

9.2.4.qanunla və müqavilə ilə nəzərdə tutulmuş digər vəzifələr.

**Maddə 10. Sığorta müqaviləsinin bağlanması və ləğvi**

10.1.Yanğından icbari sığorta müqaviləsinə dair müddəalar Azərbaycan Respublikası Mülki Məcəlləsinə, həmin Məcəllədə nəzərdə tutulmayan hissədə isə bu Qanuna uyğun olaraq müəyyən edilir.

10.2.Sığorta müqaviləsi sığortalının yazılı ərizəsi və əmlakın dəyəri göstərilməklə sığorta olunmaq üçün təqdim edilən əmlakın siyahısı əsasında sığortaçının nümayəndəsi tərəfindən sığorta olunanın iştirakı ilə sığorta obyektinə baxılmaqla bağlanılır.

10.3.sığortalının əmlakı tam dəyəri ilə sığortaya cəlb edilir.

10.4.Daşınar əmlak yalnız sığortanın əhatə etdiyi ərazi hüdudlarında sığorta olunur.

10.5.Sığorta müqaviləsi bir il müddətinə bağlanılır.

10.6.Sığorta müqaviləsi onun bağlandığı gün saat 24.00-da qüvvəyə minir və müqavilədə nəzərdə tutulan müddətin sonuncu günü saat 24.00-da qüvvədən düşür.

10.7.Sığorta müqaviləsinə aşağıdakı hallarda xitam verilir:

10.7.1.sığorta müqaviləsinin qüvvədə olma müddəti bitdikdə;

10.7.2.sığortaçı sığorta müqaviləsi üzrə özünün bütün öhdəliklərini tam həcmdə yerinə yetirdikdə;

10.7.3.sığortalı hüquqi şəxs və ya sığortaçı qanunvericiliklə müəyyən edilmiş qaydada ləğv edildikdə, sığorta olunan fiziki şəxs vəfat etdikdə;

10.7.4.sığorta müqaviləsi məhkəmənin qərarı ilə etibarsız hesab edildikdə;

10.7.5.Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulan başqa hallarda.

**Maddə 11. Əmlak sığortası üzrə sığorta məbləği**

11.1.Bu Qanuna uyğun olaraq sığortalının əmlak sığortası üzrə sığorta məbləği sığorta müqaviləsi bağlanan zaman əmlakın mövcud olan bazar qiyməti (yaxud ekspert qiymətləndirilməsi) əsasında tərəflər arasında bağlanan sığorta müqaviləsi ilə müəyyən edilir.

11.2.Sığorta məbləği hər bir sığorta obyekti üzrə ayrılıqda və ya sığorta müqaviləsində göstərilən obyektin qrupları üzrə müəyyən edilə bilər.

11.3.Əgər sığorta məbləği əmlakın bazar qiyməti əsasında müəyyən edilmiş dəyərdən (sığorta dəyərindən) artıq olarsa, sığorta dəyərindən artıq olan həmin hissə müqavilə bağlandığı andan etibarsız hesab olunur.

**Maddə 12. Mülki məsuliyyət sığortası üzrə sığorta məbləği**

12.1. sığortalının yanğın nəticəsində üçüncü şəxslər qarşısında mülki məsuliyyətinin sığortası üzrə maksimum sığorta məbləği aşağıdakı kimi müəyyən edilir:

12.1.1.əmlaka vurulan zərərə görə - əmlak sığortası məbləğinin 20 faizi miqdarında;

12.1.2.sağlamlığa vurulan zərərə görə - ümumilikdə 100 milyon manatdan artıq olmamaq şərti ilə bir nəfər üçün 10 milyon manat.

12.2.Bütün hallarda sağlamlığa vurulan zərərə görə üçüncü şəxslər qarşısında mülki məsuliyyətinin sığortası üzrə maksimum sığorta məbləği əmlak sığortası üzrə sığorta məbləğindən artıq ola bilməz.

12.3.sığortalı öz mülki məsuliyyətini bu Qanunla müəyyənləşdirilmiş sığorta məbləğindən artıq məbləğə könüllü olaraq sığortalamaq hüququna malikdir. Bu halda sığorta məbləği və sığorta haqqının miqdarı sığortaçı ilə sığorta olunan arasında bağlanan müqavilə ilə müəyyənləşdirilir.

**Maddə 13. Sığorta haqqı**

13.1. Sığorta haqqı, üçüncü şəxs qarşısında mülki məsuliyyət sığortası da daxil olmaqla, sığorta edilən əmlakın dəyərindən aşağıdakı faiz tarifləri ilə hesablanır:

13.1.1.əmlakın dəyəri 1 milyard manatadək olduqda - 0,3 faiz;

13.1.2.əmlakın dəyəri 1 milyard manatdan 5 milyard manatadək olduqda -0,25 faiz;

13.1.3.əmlakın dəyəri 5 milyard manatdan çox olduqda - 0,2 faiz.

13.2. Sığorta haqqı birdəfəlik ödənilir və ya sığortalının arzusu ilə iki dəfəyə: sığorta haqqının 50 faizi sığorta müqaviləsinin bağlandığı gün, digər 50 faizi isə müqavilənin bağlandığı gündən 4 aydan gec olmayaraq ödənilir.

**Maddə 14. Zərərin müəyyənləşdirilməsi**

14.1.Sığorta hadisəsi nəticəsində dəymiş zərərin miqdarını təqdim edilmiş sığorta tələbi əsasında sığortaçı müəyyən edir. Sığortaçı dəymiş zərəri bilavasitə özü və ya sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla təyin etdiyi sığorta sahəsində yardımçı fəaliyyət göstərən müvafiq şəxs vasitəsilə qiymətləndirir.

14.2.Əmlaka vurulan zərərin miqdarı hesablanarkən həmin əmlakın satın alınmasına və ya bərpa edilməsinə çəkilməli olan xərclər zərərin qiymətləndirilməsi zamanı mövcud olan bazar qiymətləri əsasında müəyyən olunur.

**Maddə 15. Sığorta ödənişi**

15.1.Sığorta ödənişi sığorta məbləğindən çox olmamaqla zərərin faktiki miqdarında verilir.

15.2.Əgər sığorta hadisəsi zamanı sığorta haqqının ödənilməmiş hissəsinin bu Qanunun 13.2-ci maddəsində müəyyən edilmiş ödənilmə müddəti keçmişdirsə, sığorta ödənişi faktiki ödənilmiş sığorta haqqının məbləğinə mütənasib surətdə verilir.

15.3.Eyni əmlak bir neçə sığortaçıda sığortalanmışdırsa, hər bir sığortaçı sığorta müqaviləsinə uyğun olaraq öz payına düşən ödəniş hissəsini verir.

15.4.Sığorta ödənişi zərərçəkənə verilir. Mülki məsuliyyət sığortası üzrə sığorta məbləği üçüncü şəxslərin iddialarını ödəmək üçün kifayət qədər deyildirsə, ödəniş sığortalı ilə razılaşdırılmaqla əmlak sığortası üzrə sığorta məbləğindən verilə bilər.

15.5.Sığorta hadisəsi baş verdikdə sığortalının aşağıdakı xərcləri də sığorta ödənişinə daxildir:

15.5.1.zərəri azaltmaq məqsədilə binaların, qurğuların, avadanlığın sökülməsi və başqa yerə köçürülməsi ilə bağlı xərclər;

15.5.2.zərər vurulan əmlakın qalıqlarının yığılması və daşınması ilə bağlı xərclər.

15.6.Yanğının daha da genişlənməsinin qarşısını almaq məqsədilə görülən yanğınsöndürmə tədbirləri nəticəsində əmələ gələn ziyan da sığorta ödənişinə daxil edilir.

15.7.Üçüncü şəxsin sağlamlığına vurulan zərərə görə sığorta ödənişi mülki məsuliyyət sığortası üzrə sığorta məbləğindən aşağıdakı faizlərlə verilir:

15.7.1.ölüm -100 faiz;

15.7.2.I qrup əlillik, 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğu - 80 faiz;

15.7.3.II qrup əlillik - 60 faiz;

15.7.4.III qrup əlillik - 40 faiz;

15.7.5.ağır xəsarət - 25 faiz;

15.7.6.yüngül xəsarət - 5 faiz.

**Maddə 16. Sığorta ödənişini verməkdən imtina edilməsi üçün əsaslar**

16.1.Sığorta hadisəsi sığortalının birbaşa qəsdlə törətdiyi əməlin (hərəkətin və ya hərəkətsizliyin) nəticəsində baş veribsə, sığortaçı öz öhdəliklərini icra etməkdən azad olunur.

16.2.Sığorta hadisəsi üçüncü şəxsin qəsdlə törətdiyi hərəkətin nəticəsində baş veribsə və bu

hadisə ilə əlaqədar özü zərər çəkibsə, həmin şəxsə zərərin əvəzi sığortaçı tərəfindən ödənilmir.

16.3.Sığortaçı Azərbaycan Respublikası Mülki Məcəlləsində ~~və "Sığorta haqqında" Azərbaycan Respublikası Qanununda~~ nəzərdə tutulmuş digər əsaslarla da sığorta ödənişi verməkdən imtina edə bilər.

**Maddə 17. sığortalılara güzəştlərin verilməsi**

17.1. Sığorta müqaviləsinin qüvvədə olduğu bir il müddətində sığorta ödənişi verilməmişdirsə, sığorta müqaviləsi növbəti il üçün bağlanarkən sığortalı bu Qanuna uyğun hesablanmış sığorta haqqı məbləğindən aşağıdakı qaydada güzəşt edilir:

17.1.1.2-ci il üçün 10 faiz,

17.1.2.3-cü və sonrakı illər üçün 15 faiz.

17.2. Dövlət yanğın nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanları tərəfindən təsdiq edilmiş aşağıdakı hallarda sığortalı sığorta haqqının ödənilməsində güzəşt edilir:

17.2.1.avtomatik yanğın xəbərçisi və ya yanğınsöndürmə qurğusu olduqda - 5 faiz;

17.2.2.yanğından mühafizə bölməsi olduqda - 10 faiz.

17.3. Bu Qanuna görə, sığortalının ödədiyi sığorta haqları istehsalat xərclərinə aid edilir.

**Maddə 18. Sığorta haqlarının bölüşdürülməsi**

18.1. Daxil olan sığorta haqlarının 80 faizi miqdarında sığorta qanunvericiliyi ilə müəyyən olunmuş qaydada sığorta ehtiyatları formalaşdırılır.

18.2. Sığorta haqlarının sığorta ehtiyatlarının formalaşdırılmasından sonra qalan hissəsi aşağıdakı qaydada bölüşdürülür:

18.2.1. sığortaçının işlərinin aparılması xərclərinə - 14,7 faiz;

18.2.2. sığorta sektorunda dövlət tənzimlənməsi və nəzarətinin həyata keçirilməsinin maliyyələşdirilməsinə - 0,3 faiz;

18.2.3. "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yanğının qarşısını alma tədbirlərini həyata keçirmək üçün yanğından mühafizə növlərinə - 5 faiz.

**Maddə 19. Risklərin bölüşdürülməsi**

19.1.Maliyyə sabitliyini təmin etmək məqsədilə sığortaçılar öz risk saxlama imkanlarından artıq olan riskləri və ona uyğun sığorta haqlarmı təkrar sığorta yolu ilə bölüşdürməlidirlər.

19.2.Qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, bir müqavilə üzrə qəbul edilən riskin 3 milyard manatdan artıq hissəsi xarici təkrar sığortaçılarda təkrar sığortalana bilər.

19.3.Xarici təkrar sığortaçıda sığortalanan risklər üzrə təkrar sığorta komisyon **mükafatı hesablanmış sığorta haqqının 10 faizindən** az olmamalıdır.

**Maddə 21. Nəzarət və mübahisələrə baxılma**

20.1.Yanğından icbari sığortanın iştirakçıları tərəfindən bu Qanuna riayət edilməsinə nəzarəti müvafiq icra hakimiyyəti orqanları həyata keçirirlər.

20.2.Bu Qanuna əsasən bağlanılan sığorta müqavilələrindən irəli gələn mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada, o cümlədən məhkəmə qaydasında həll edilir.

**Maddə 21. Qanunun pozulmasına görə məsuliyyət**

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslər və sığortaçılar bu Qanunun

tələblərini pozduqlarına görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 yanvar 2004-cü il
№ 573-IIQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 24 iyun 2005-ci il tarixli 948-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005-ci il, № 8, maddə 692**)
2. 17 aprel 2007-ci il tarixli 320-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 6, maddə 562**)
3. 13 iyun 2008-ci il tarixli 648-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, №7, maddə 602**)
4. 2 oktyabr 2008-ci il tarixli 699-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 16 noyabr 2008-ci il, № 257)**